| Yaqub Eyyubov | |
|---|---|
| Yaqub Abdulla oğlu Eyyubov | |
| **Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini** | |
| 13 fevral 2003 — indiyə kimi | |
| **Azərbaycan Respublikası Baş Nazirinin müavini** | |
| 10 iyul 1999 — 13 fevral 2003 | |
| **Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsinin sədri** | |
| 25 fevral 1999 — 10 iyul 1999 | |
| **Şəxsi məlumatlar** | |
| **Partiya** | Sovet İttifaqı Kommunist Partiyası |
| **Təhsili** | Azərbaycan Texniki Universiteti |
| **Doğum tarixi** | 24 oktyabr 1945 (75 yaş) |
| **Doğum yeri** | Mingəçevir, Azərbaycan SSR, SSRİ |
| **Təltifləri** | |

**Yaqub Abdulla oğlu Eyyubov** (24 oktyabr 1945, Mingəçevir) — Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini.

## Həyatı

Yaqub Eyyubov 24 oktyabr 1945-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. ixtisası - inşaat mühəndisidir, texnika elmləri doktoru, professordur. 1994-cü ildə Beynəlxalq Mühəndis Akademiyasının akademiki seçilmişdir.

**Əmək fəaliyyəti**

Əmək fəalliyyətinə 1964-cü ildə leyt.Şmidt adına zavodda tornaçı kimi başlamışdır. 1963-1964-cü illərdə Azərbaycan Politexnik İnstitutunun tələbəsi olmuşdur. 1964-1967-ci illərdə ordu sıralarında qulluq etmişdir. 1968-1972-ci illərdə Azərbaycan Politexnik İnstitutunun tələbəsi olmuşdur. 1970-1972-ci illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin komsomol komitəsinin katibi, 1972-1974-cü illərdə həmin institututda baş laborant, institutun aspirantı, 1973-1974-cü illərdə institut partiya komitəsi katibinin müavini olmuşdur. 1975-1997-ci illərdə Azərbaycan Mühəndis-İnşaat İnstitutunda 0.5 ştatla əvəzçilik yolu ilə baş müəllim, dekan müavini, baş müəllim, dosent, dekan vəzifəsini müvəqqəti icra edən, dosent, elmi işlər üzrə prorektor, kafedra müdiri vəzifələrində işləmişdir. 1997-1998-ci illərdə Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ Mədən Nəzarəti Komitəsinin sədri, 1998-1999-cu illərdə həmin komitənin sədrinin səlahiyyətlərini icra edən, 1999-cu ildən Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsinin sədri olmuşdur.

1999-2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir.

23 oktyabr 2015-ci ildə ölkə başçısı Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə Yaqub Abdulla oğlu Eyyubovun "Şərəf" ordeni ilə təltif edilməsi ilə bağlı sərəncam verib.

Həmçinin Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycan baş nazirinin birinci müavini Yaqub Eyyubovu Belarus və Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin inkişafında və möhkəmləndirilməsində əhəmiyyətli töhfələrinə görə "Şərəf" ordeni ilə təltif edib. 2016-cı ildə Vladimir Putin tərəfindən Rusiyanın "Dostluq" ordeni ilə təltif edilmişdir.